# TƏBRİK EDİRİK!..





MÜŞFİQ BORÇALI (Müşviq Məməd oğlu Çobanov) - bu günlərdə daha bir fəxri mükafata layiq görülüb. O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Fərmanı ilə təsis edilmiş "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının Yubiley medalı ilə təltif olunub.

Medal - 2025-ci il dekabrın 19-da - Müşfiq müəllim üçün olduqca əziz və əlamətdar olan bir gündə, 35 ildir ki, şərəf və ləyaqətlə çalışdığı, dəfələrlə Fəxri Fərman və mükafatlarla təltif olunduğu Azərbaycan Texniki Universitetinin 75 illik yubiley günündə Medianın İnkişafı Agentliyində təqdim edilib.

Müşfiq Borçalı Jurnalistlərimizə, ümumilikdə mediamıza verdiyi dəyərə, göstərdiyi diqqətə və etimada görə möhtərəm Prezidentimiz - cənab İlham Əliyevə, Prezidentin sərəncamı ilə Medalı təltif etmək səlahiyyətinə malik olan Medianın İnkişafı Agentliyinin rəhbərliyinə, Agentliyn icraçı direktoru Əhməd İsmayılova, Azərbaycan Texniki Universitetin rektoru, Əməkdar Elm xadimi, professor Vilayət Vəliyevə və Azərbaycan Mətbuat Şurasının sədri, Əməkdar Mədəniyyət işçisi Rəşad Məcidə təşəkkür edib, bundan sonra da mətbuatımızın, elmimizin və təhsilimizin inkişafı naminə var qüvvəsi ilə çalışacağını bildirib.

Qeyd edək ki, 1997-ci ildən Azərbaycan Yazıçılar Birliyinin, 1998-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin, 2015-ci ildən Turan Yazarlar Birliyinin, 2017-ci ildən Yeni Azərbaycan Partiyasının üzvü, 2016-cı ildən filologiya üzrə fəlsəfə doktoru, həmçinin, "Abdulla Şaiq", "Həsənbəy Zərdabi", "Nəriman Nərimanov", "Ömər Faiq Nemanzadə", "Zirvə", "Zəfər", "Qafqaz", "Ustad", "Qızıl Qələm", "Peşəkar jurnalist", "Cəsarətli qələm sahibi", "Kamil sənətkar" və s. mükafatların laureatı olan Müşfiq Borçalı (Müşviq Məməd oğlu Çobanov) Azərbaycan Respublikası Milli Məclisinin Təhsil və Mətbuat haqqında qanunlar hazırlayan işçi qruplarının üzvü olmuş və qanunların hazırlanmasında yaxından iştirak etmiş, dəfələrlə Fəxri Fərman, Fəxri diplom və müxtəlif mükafatlarla, o cümlədən, Azər-baycan Respublikası Təhsil Nazirliyinin, Mədəniyyət və Turizm Nazirliyinin, Əmək və Əhalinin So-sial Müdafiəsi Nazirliyinin Diplom və sertifikatlarına,




2024-cü ildə Prezident təqaüdünə layiq görülmüş, 2025-ci ildə isə anadan olmasının 55 və Azərbaycan Milli Mətbuatının 150 illik Yubileyi münasibətilə Türk Dünyası və türk xalqları arasında ədəbi-mədəni əlaqələrin qurulması, dostluq və qardaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi naminə göstərdiyi böyük xidmətlərə görə, qardaş Türkiyə Cumhuriyyətinin Çukurova Ədəbiyyatçılar Dərnəyinin təsis etdiyi "Mustafa Kemal Atatürk" Qızıl medalı ilə təltif olunmuşdur.

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının Yubiley medalı ilə təltif olunması münasibətilə ürəkdən təbrik edirik. Ona uzun ömür, möhkəm can-sağlığı, şəxsi həyatında, ədəbi-bədii yaradıcılığında, eləcə də, şərəfli elmi-pedaqoji, həmçinin, jurnalistlik və ictimai fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq!..

*20 dekabr 2025*